

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti** *1933-cü ildən nəşr olunur*

**№ 68-69 (7305-7306)** ❁ **Çərşənbə axşamı, 29 sentyabr 2015-ci il** ❁ **Qəzet ayda 4 dəfə çıxır** ❁ **Qiyməti 40 qəpik**


## BMT-nin 70-ci sesiyası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev 2015-ci il üzrə beynəlxalq Cənub-Cənub mükafatı ilə təltif olunub



BMT-nin 70-ci sesiyası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev 2015-ci il üzrə beynəlxalq Cənub-Cənub mükafatı ilə təltif olunub. BMT-nin 70-ci sesiyası çərçivəsində "Cənub Cənub" mükafatının təqdimolunma mərasimi keçirilib. Cənub-Cənub mükafatı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Davamlı İnkişaf üçün Cənub-Cənub İdarəedici Komitəsi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Cənub-Cənub Əməkdaşlığı üzrə Beynəlxalq Təşkilatı və BMT-yə üzv olan bir sıra dövlətlər, agentliklər və fondlar tərəfindən təsis edilib. Bu mükafat BMT-nin hesabatlarına əsasən, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, Minilliyin İnkişaf Məqsədlərində əsaslı irəliləyişlərə nail olmuş ölkələrə verilir. Mərasimdə BMT-nın baş katibi Ban Gi Munun təbrik məktubu oxundu. Məktubda deyilir: Dünyada sülh və əminamanlığın qorunması, həmçinin 2030-cu ilə qədər hər yerdə bütün aspektlərdə yoxsulluğa biryolluq son qoymaq və heç kəsi unutmamaq bizim əsas məqsədimizə çevrilməlidir". Mərasimdə bildirilib ki, Prezident İlham Əliyev əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyinin siyasi iradəsi, bununla əlaqədar həyata keçirilmiş Dövlət proqramları, savadsızlığın və yoxsulluğun minimuma endirilməsi və Minilliyin İnkişaf Məqsədlərinin uğurla həyata keçirilməsi istiqamətində görülmüş tədbirlərə görə Cənub-Cənub mükafatı ilə təltif olunub. Mükafatı Prezident İlham Əliyevin adından xarici işlər naziri Elmar Məmmədyarov qəbul edib.

Son 5 il ərzində biz müxtəlif ölkələrdə davamlı inkişaf proqramları üzrə çalışırıq. Azərbaycan qlobal iqtisadi əhəmiyyət daşıyan, eyni zamanda, millətlərarası və dinlərarası dialoq baxımından da nümunəvi bir ölkədir. Tolerantlıq, milli-dini-irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur. Böyük qürur hissi ilə deyə bilərəm ki, builki qaliblər sırasında Azərbaycan da var. Ölkənizə yeni uğurlar arzulayıram.

**AzTV-nin 28 sentyabr 2015-ci il tarixli rəsmi xronikası.**

## Azərbaycan növbəti möhtəşəm Beynəlxalq tədbirə hazırlaşır

Məlum olduğu kimi 2017-ci ildə Azərbaycanda IV İslam Həmrəylik Oyunları keçiriləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin birinci iclası olub.

Dövlət başçısı iclasda çıxış edib.

Ölkə Prezidenti qeyd etmişdir ki, 2017-ci ildə Bakıda IV İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu, böyük beynəlxalq tədbirdir. Həm dünya, həm İslam aləmi üçün çox önəmli idman yarışmasıdır. Bu Oyunların Azərbaycanda keçirilməsi bir daha onu göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Azərbaycanda bu günə qədər bütün mötəbər beynəlxalq tədbirlər ən yüksək səviyyədə keçirilmişdir. Eyni zamanda 2017-ci ildə keçiriləcək oyunları İslam aləminin Azərbaycana, onun inkişafına verdiyi yüksək dəyər kimi qiymətləndiririk.

Bir neçə gün bundan əvvəl ölkə Prezidentinin Sərəncamı ilə Oyunların Təşkilat Komitəsi yaradılmışdır.

Təşkilat Komitəsinə rəhbərlik Azərbaycanın birinci Mehriban Əliyevaya həvalə olunub. Həm "Eurovision" mahnı müsabiqəsinin Təşkilat Komitəsinə, eyni zamanda, birinci Avropa Oyunlarının Təşkilat Komitəsinə Mehriban xanım Əliyeva rəhbərlik etmişdir. Nəticələr də göz qabağındadır. Hər iki beynəlxalq tədbir ən yüksək səviyyədə keçirilmişdir. Həm "Eurovision" müsabiqəsində, həm Avropa Oyunlarının gedişatında bütün təşkilati məsələlər öz həllini tapıb və bu yarışmalarda iştirak etmiş bütün idmançılar və Azərbaycana gəlmiş qonaqlar bunu yüksək qiymətləndirmişlər.

Birinci Avropa Oyunları xüsusi ilə böyük hadisəyə çevrildi. Bu, birinci belə yarışma idi. Bu günə qədər Avropada qitə yarışları keçirilməmişdi. Əlbəttə ki, bu yarışın yüksək səviyyədə keçirilməsi ölkəmizin səviyyəsindən asılı idi. Azərbaycan bu oyunların standartlarını müəyyən etdi. Bu, ən yüksək standartlar idi. Həm qonaqlar, həm Azərbaycan vətəndaşları bir daha gördülər ki, birinci Avropa Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirilmişdi. Məhz qarşıya belə məqsəd qoyulmuşdu. Baxmayaraq ki, bu Oyunların hazırlanmasına bizim cəmi 2 il yarım vaxtımız var idi. Həm yeni idman infrastrukturunun yaradılması, həm mövcud idman obyektlərinin təmiri, bütün təşkilati məsələlərin həlli ən yüksək səviyyədə həyata keçirildi və şübhəsiz, bu işlərdə ölkə Prezidentinin və Təşkilat Komitəsinin xüsusi rolu və əməyi var idi.

Avropa Oyunları Azərbaycana imkan verdi ki, öz potensialını ortaya qoysun. Azərbaycan Avropaya və bütün dünyaya bir daha göstərdi ki, Azərbaycan sürətli inkişaf dövrünü yaşayır, Azərbaycan dostluq, əməkdaşlıq məkanıdır, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri rahat bir ailə kimi yaşayır və ölkəmiz bütün qonaqları qəbul etməyə hazırdır və buna qadirdir. Azərbaycan xalqı öz qonaqpərvərliyini, öz tolerantlığını, qonaqlara olan hörmətini bir daha ifadə etdi. Eyni zamanda, oyunlar vaxtı təşkilatçılıq qabiliyyəti ən yüksək səviyyədə idi. Bu da ölkəmizin ümumi inkişaf potensialının göstəricisi kimi artıq qonaqlar tərəfindən yüksək qiymətləndirilmişdir.

**(Ardı 2-ci səhifədə).**